



# BU CİNSİ İSTİSMARDIRMI?





COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Onun davranışında sizi narahat edən məqamlar var?

Bəzi çılpaq şəkilləriniz paylaşılıb? Sizi şantaj edirlər?

Gizli bir məqsədin olduğundan şübhələnirsiz?

Bunu etmək istədiyindən əmin deyilsən?

Cinayət işi başlandımı?

SUALLARI OLAN TƏK SƏN DEYİLSƏN.

REAL HƏYAT HEKAYƏLƏRI OXU VƏ ÖZ HÜQUQLARINI ÖYRƏN!

# ŞADAM Kİ, MƏNƏ DEDİN!



Sənə nə olub qızım? Dünən axşam evə gələndə çox fikirli, narahat görünürdün.

**Heç nə olmayıb...**

Axı, sən həmişə görüşdən gələndə çox sevincli, şən olurdun.

**Deyirəm ki, heç nə olmayıb, ana!!!**

Yaxşı qızım, əgər danışmaq istəsən, mən burdayam.

**Bilirsən ana... Biz dalaşdıq.**

Ah, mənim balam, təəssüf. Nə baş verib?

**... o başladı deməyə ki, mən onu sevmirəm...**

Amma o, nə üçün belə düşünsün ki?

**Bilmirəm... ya da :(( ... yox, istəmirəm ki, mənə görə təşvişə düşəsən.**

Mənə görə narahat olma qızım :) , bilirsən ki, sənin üçün əlimdən gələni edərəm.

**Heç bilmirəm bunu sənə necə deyim :/ , çox çıxılmaz vəziyyətdəyəm... O... O düşünür ki... başqa qızlar.... daha doğrusu, artıq 16 yaşı tamam olan başqa qızlar mənim kimi deyillər. Yəni..., onlar kiminləsə yatmağı adi hal kimi qəbul edirlər və bu onların sevgisinin sübutudur. Ancaq mən...... mən yox ... :( . Axı biz hələ təzə tanış olmuşuq və mən.... deməli... bilirsən....**

Başa düşürəm. Sən hələ hazır deyilsən, bəlkə də, bunun indi baş verməsini istəmirsən.

**Tamamilə doğrudur!**

Bilirsən qızım, sən hisslərindən əmin olmalısan... min olmalısan ki, sən həqiqətən də bu addıma hazırsan və partnyorunun sənə olan münasibəti səmimidir.

**O deyir ki, əgər mən onu həqiqətən sevsəydim, onunla intim əlaqədə olmaq barədə həmişə düşünərdim.**

Sevgi, kimisə sevmək, kiminləsə bir yerdə olmaq istəyi ilə eyni deyil. Bu hisslər ayrıdır.

**Axı, o niyə məni anlamaq istəmir?**

Bilirsən qızım, o bu məsələdə səni başa düşmək istəmirsə, sənin hələ də hazır olmadığını görmürüsə və bütün bunlarla yanaşı sənə emosional təzyiq göstərirsə, onada... onda, bu o deməkdir ki, onun üçün öz istəkləri sənin ona qarşı olan sevgindən daha vacibdir.

**Mən onu itirmək istəmirəm, istəmirəm ki, o məndən ayrılsın.**

Təbii ki, mən səni anlayıram. Sevdiyi insanı itirmək qorxusu bütün insanlara xasdır. Ancaq bu, onun istəklərinə görə səni hələ hazır olmadığın bir addımı atmağa vadar edə bilməz. Bu onun üçün əsas deyil.

**Necə düşünürsən ana, səncə o məni sevmir?**

Bilmirəm, bəlkə o düşünür ki, səni sevir, amma sevgi heç vaxt özünü zorakılıq və ya təzyiq kimi göstərmir.

**Ah, bu, o qədər utandırıcıdır ki ....**

Şadam ki, mənə dedin. Mən fəxr edirəm ki, mənim sənin kimi ağıllı, dürüst, hisslərini idarə etməyi bacaran gözəl bir qızım var :).




CİNSƏLLİK HAQQINDA DANIŞMAQ ÇOX ZAMAN ÇƏTİN OLUR, XÜSUSƏN DƏ, BU İNSANA QORXU, XƏCALƏT, GÜNAH KİMİ HİSSLƏR YAŞADIRSA.

UNUTMA Kİ, SƏN TƏK DEYİLSƏN!
SƏNİ NARAHAT EDƏN SUALLARIN VARSA, ONLARI ETİBAR ETDİYİN KƏSLƏRLƏ BÖLÜŞMƏKDƏN ÇƏKİNMƏ. BU, AİLƏ ÜZVÜN, MÜƏLLİMLƏRİN, PSİXOLOQ VƏ YA SƏNİ DİNLƏYƏ BİLƏCƏK DİGƏR ŞƏXS DƏ OLA BİLƏR.

İNTİM MÜNASİBƏT YALNIZ, YETKİNLİK YAŞINA ÇATMIŞ ŞƏXSLƏR ARASINDA QARŞILIQLI RAZILIQ ƏSASINDA QURULA BİLƏR.

UŞAQLARIN CİNSİ İSTİSMARDAN VƏ CİNSİ ZORAKILIQDAN MÜDAFİƏSİ" HAQQINDA AVROPA ŞURASININ KONVENSİYASINA ƏSASƏN, QANUNLA MÜƏYYƏN EDİLMİŞ YAŞA ÇATMAMIŞ UŞAQLA SEKSUAL XARAKTERLİ HƏRƏKƏTLƏR YOL VERİLMƏZDİR VƏ BU CİNSİ İSTİSMAR HESAB OLUNUR. MƏCBUR ETMƏ, GÜC TƏTBİQ ETMƏ, UŞAĞIN ETİBARINDAN SUİ-İSTİFADƏ ETMƏ, YAXUD, ƏQLİ VƏ YA FİZİKİ ƏLİLLİYƏ, ASILILIQ VƏZİYYƏTİNƏ GÖRƏ SUİ-İSTİFADƏ CİNSİ İSTİSMAR, CİNSİ ZORAKILIQ HALLARI HESAB OLUNUR.

KÖMƏK İSTƏMƏKDƏN ÇƏKİNMƏ!

ƏGƏR SƏNİ NARAHAT EDƏN SUALLARI BÖLÜŞMƏK ÜÇÜN ETİBAR ETDİYİN BİRİ YOXDURSA, ÇƏKİNMƏDƏN MÜVAFİQ QURUMLARA MÜRACİƏT ET. KÖMƏK TELEFON XƏTTİ ÜÇÜN BURAYA DAXİL OLUN:

HTTPS://WWW.CHILDHELPLINEINTERNATIONAL.ORG/CHILD-HELPLINES/CHILD-HELPLINE-NETWORK/

AVROPA UŞAQLARA KÖMƏK TELEFON XƏTTİ: 116-111

# BU, CİNSİ İSTİSMAR HESAB OLUNUR?

Psixoloq: Yəqin, sən eşitmisən ki, idman müəllimi məktəbdən gedib, mən də səninlə bu barədə danışmaq üçün gəlmişəm.

**tələbə: Həqiqətən o məktəbdən qovulub?**

**Eşitdiyimə görə, valideynlərdən biri, müəllimi, qızına qarşı seksual xarakterli hərəkət etməkdə günahlandırıb. Bu səbəbdən də, rəhbərlik onu qovmaq məcburiyyətində qalıb. Doğrudurmu?**

Məktəb sizi cinsi istismardan qorumaq üçün məsuliyyət daşıyır. Bu, o deməkdir ki, razı olmadığınız halda, heç kim sizə toxuna bilməz.

**Beləliklə, bu, cinsi istismar sayılır?**

Tamamilə doğrudur. Amma, təkcə uşaqlara qarşı əxlaqsız hərəkətlər yox, eyni zamanda, seksual xarakterli səhnələri müşahidə etməyə məcbur etmə də cinsi istismar hesab olunur.

**Əgər, uşaq (qız) hər hansı bir hərəkəti səhv başa düşübsə, onda necə?**

Uşaqların cinsi istismarı və onlara qarşı seksual xarakterli hərəkətlərin bütün formalarının qarşısını almaq və uşaqları qorumaq üçün hər hansı bir şübhəli məqam olduqda mütləq şəkildə tədqiqat aparılmalıdır. Siz uşaqlar isə, bu cür halların qarşısını vaxtında ala bilmək üçün, böyüklərinizlə sizi narahat edən məsələləri bölüşməlisiniz.

**Bilirsiz..... Mən eşitdimi ki, soyunub-geyinmə otağında müəllim, başqa bir qızı da təhqir edirmiş. Amma........, amma, mən buna heç inanmadım. Məncə müəllim, sadəcə zarafat edib.**

Uşaqlara qarşı seksual xarakterli hərəkətlərin bütün formaları qadağandır.

**Düşünürəm ki, müəllimin sadəcə ondan xoşu gəlirdi. Rəfiqəm deyir ki, onlar məşqdən sonra, məktəbdə qalır, birgə çox vaxt keçirirlərmiş.**

**Hə, bilirsiz, bir də nə eşitmişəm. Eşitmişəm ki, onlar, məkdəbdən kənarda da görüşə çıxırlarmış.**

Müəllim - şagird münasibətlərində, müəllim tərəf nüfuzundan, şagirdin ona olan etibarından sui-istifadə etməməlidir, bu qanunla qadağandır.

**Bəs o (qız) özü razılıq veribsə, onda necə?**

Bunun heç bir fərqi yoxdur, çünki, belə bir vəziyyətdə şagird asılı tərəfdir. Yəni müəllimin onun üzərində səlahiyyəti, təsir gücü var, odur ki, bu cür münasibətlər istənilən halda qadağandır.

**Bilirsiz, məncə burda təkcə müəllim günahkar deyil. Gərək buna o (qız) özü etiraz edərdi, razılıq verməzdi. Deməli burda həm də, qızın günahı var.**

Cinsi istismar heç bir halda uşağın günahı deyil. Çünki, uşaqlar çox vaxt nəyin baş verdiyini anlamır, utanır və ya özlərini günahkar hesab edirlər. Seksual xarakterli hərəkətə təhrik etmək və ya bu məqsədlə qorxutmaq bir cinayətdir.



VALİDEYNLƏR VƏ YA UŞAĞA QAYĞI GÖSTƏRƏN ŞƏXSLƏR UŞAĞIN CİNSİ İSTİSMARINDA VƏ YA ONA QARŞI CİNSİ ZORAKILIQDA İŞTİRAK ETDİYİ AŞKARLANARSA BU QANUNLA MÜƏYYƏN EDİLMİŞ QAYDADA MƏSULİYYƏTƏ SƏBƏB OLUR.

ÖZÜNÜZƏ ƏMİN OLUN, HİSLƏRİNİZƏ İNANIN. ƏGƏR CİNSİ İSTİSMARA YOL AÇAN HADİSƏ İLƏ RASTLAŞSAZ BUNU MÜTLƏQ ŞƏKİLDƏ ETİBAR ETDİYİNİZ KƏSLƏRLƏ BÖLÜŞÜN. ÖZÜNÜZÜN VƏ YA DOSTLARINIZIN TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASI, DOĞRU HƏLL YOLUNUN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ ÜÇÜN BU ÇOX VACİBDİR.

UŞAQLARLA TƏMASDA ÇALIŞAN MÜƏYYƏN PEŞƏ SAHİBLƏRİ TƏRƏFİNDƏN UŞAQLARA QARŞI SEKSUAL XARAKTERLİ HƏRƏKƏTLƏR, CİNSİ İSTİSMAR VƏ YA CİNSİ ZORAKILIQ HALLARI TÖRƏDİLDİKDƏ BÖYÜKLƏR MƏSULİYYƏT DAŞIYIR, BURDA UŞAQ CİNSİ ZORAKILIQ QURBANIDIR.

UNUTMAYIN! UŞAQLARA QARŞI SEKSUAL QISNAMA, ZORAKILIQ HƏRƏKƏTLƏRİ VƏ YA SEKSUAL FƏALİYYƏTİ MÜŞAHİDƏ ETMƏYƏ MƏCBURİYYƏT QANUNLA YOLVERİLMƏZDİR VƏ BUNA GÖRƏ CİNAYƏT MƏSULİYYƏTİ MÜƏYYƏN EDİLİR.



psixoloq

# ƏGƏR ONUN GİZLİ MƏQSƏDLƏRİ VARSA, BƏS ONDA NECƏ?



**Salam, mən sizə uşaq evindən zəng vururam. Sizinlə bir məsələ haqqında danışmaq istəyirəm. Sizin məsləhətinizə çox ehtiyacım var. Bilirsiz... Mənim bir dostum var və mən ona görə çox narahatam.**

Salam! Şadam ki, zəng etmisən.

**Dostum hər zaman dərslərində çalışqan, nümunəvi olub. O çox böyük həvəslə qəbul imtahanlarına hazırlaşırdı. İndi isə... demək olar ki, məktəbə gəlmir. Onu çox az-az görürəm.**

Nəyinsə baş verdiyindən şübhələnirsən?

**Bəlkə də, mən səhv edirəm... Amma... Özündən xeyli yaşlı olan biri ilə dostluq etməyə başlayıb, onunla çox görüşür.**

Bəs, dostun haqqında daha nə danışa bilərsən? Onda yeni yaranan hər hansı vərdiş, yaxud hərəkətlər müşahidə etmisənmi?

**Bilirəm ki, onlar hansısa qonaqlıqda tanış olublar. Adətən uşaq evində, gecə saatlarında harasa getməyə icazə yoxdur. Lakin, o, necəsə həmin gün çıxa bilmişdi. Dostu onu həmişə maşını ilə gəlib götürür. O deyir ki, onlar birgə klub, kinoteatr, əyləncə mərkəzlərinə gedirlər. O,.... Bilirsiz, O, demək olar ki, daha mənimlə danışmır.**

Başa düşürəm ki, bu, sənin üçün çətindir.

**Beləliklə, o, tamamilə dəyişdi. Biz bir yerdə çox az oluruq, bir yerdə olanda isə çox əsəbi və gərgin təəssurat bağışlayır. Hesab edir ki, o artıq böyüyüb, tamamilə müstəqildir və hər şey edə bilər.**

Onunla bu barədə danışa bildin?

**Xeyir... danışa bilmədim :-(. Onunla görüşüb rahat danışmağın mümkünsuz olduğunu anlayanda, fikirlərimi mesajla bildirmək qərarına gəldim. Lakin... o... o, mənə cavab belə yazmır :-(. Bilirsiniz.... çox qəribədir... bəzən evdə olanda gah məni sevinclə qarşılayır, gah da sadəcə heç görüşmədən qapını çırpıb gedir.**

Yaxşı ki, bizə zəng etmək qərarına gəldin. Dostun üçün narahat olmaqda haqlısan. Onun düşüdüyü yeni mühit çox təhlükəli ola bilər.

**Nə üçün bu, təhlükəli ola bilər?**

Bəzən, uşağın etibarından sui-istifadə edən insanlar olur. Onlar, uşaqlarla yaxın münasibətlər qurur və onlarda özlərinə qarşı inam hissi yaradırlar. Müxtəlif hədiyyələr, gəzintilər bir növ onlar üçün öz istəklərinə çatmaqda bir vasitədir. Bəzən uşaqlar xoşagəlməz halların baş verdiyini hiss etsələr də, bunu müəyyən səbəblərdən heç kimə demirlər. Onlar ya qorxur ya da sadəcə utanırlar.

**Mən o oğlanı tanımıram, amma dostuma zərər verərsə, dəli olaram ...**

Bu mövzuda böyüklərdən etibar etdiyin kiminləsə danışmısanmı? Məktəbdə müəllimlərindən və ya uşaq evinin rəhbərliyindən biri ilə?

**Xeyir... danışmamışam. Çünki :-/... qorxuram. Qorxuram ki, onun haqqında kiminləsə danışdığımı bilsə, o bir daha mənimlə dost olmayacaq, mənə nifrət edəcək.**

Onun üçün narahat olmaq sənin necə qayğıkeş, ağıllı və səmimi dost olduğunu göstərir. Bilirsən, dostunun həqiqətən də köməyə ehtiyacı var, onu bu vəziyyətdən çıxarmağa çalışmağın, xəyanət olaraq qiymətləndirilə bilməz, əksinə, sən onun qəhrəmanısan. Biz dostuna kömək etmək üçün əlimizdən gələni edəcəyik.

**Təşəkkür edirəm! Yaxşı ki, sizə zəng etdim! Uşaqlar gəldi, mən getməliyəm. Sağ olun.**

ANONİMLİYİNİZİ QORUNMAQLA MƏSLƏHƏT ALA BİLƏCƏYİNİZ ÖDƏNİŞSİZ TELEFON YARDIM XİDMƏTLƏRİ MÖVCUDDUR. ONLAR, SİZİ DİNLƏMƏKLƏ YANAŞI, EHTİYAC OLDUQDA, ZƏRURİ QANUNVERICİLİK VƏ YA DİGƏR TƏDBİRLƏRİN HƏYATA KEÇİRİLMƏSİNDƏ YARDIM EDİRLƏR. ÖZÜNÜZÜ TƏNHA HİSS EDİRSİNİZSƏ VƏ FİKİRLƏRİNİZİ BÖLÜŞMƏK ÜÇÜN KİMƏ MÜRACİƏT EDƏCƏYİNİZİ BİLMİRSİNİZSƏ, YARDIM XİDMƏTİNƏ ZƏNG EDİN. SİZİ DİNLƏYİB, QƏBUL EDƏCƏKLƏR. AVROPA UŞAQLARA KÖMƏK TELEFON XƏTTİ: 116-111. ÖZ ÖLKƏNİZƏ AİD OLAN XƏTTİ BURADA TAPA BİLƏRSİNİZ:

HTTPS://WWW.CHILDHELPLINEINTERNATIONAL.ORG/CHILD-HELPLINES/CHILD-HELPLINE-NETWORK/

ÖZÜN VƏ YA DOSTUN BARƏDƏ SƏNİ NARAHAT EDƏN MƏQAMLAR VARSA, KİMSƏ SİZİ QORXUDUR, YAXUD HƏDƏLƏYİRSƏ BUNU MÜTLƏQ BÖYÜKLƏRDƏN ETİBAR ETDİYİN BİRİ İLƏ BÖLÜŞ.

MÜXTƏLİF HƏDİYYƏLƏR, SPİRTLİ İÇKİ, SİQARET VƏ YA UŞAĞIN MARAĞINA SƏBƏB OLA BİLƏCƏK DİGƏR VƏSAİTLƏR VERMƏK, YAXUD, VƏD ETMƏKLƏ UŞAQDAN SEKSUAL XARAKTERLİ HƏRƏKƏTLƏR ÜÇÜN İSTİFADƏ OLUNMASI CİNSİ İSTİSMAR, EYNİ ZAMANDA UŞAQ FAHİŞƏLİYİ FAKTINI İFADƏ EDİR. UŞAĞI BUNU ETMƏK ÜÇÜN İSTİFADƏ EDƏN, ETMƏYƏ İNANDIRAN VƏ YA MƏCBUR EDƏN HƏR BİR KƏS CİNAYƏT TÖRƏDİR.



Telefon yardım xətti

# GÖRÜŞƏ ÇIXMAQ



**Salam, bir az vaxtın var?**

Əlbəttə. Nə olub? Çoxdandır görünmürsən!

**Hə... elədir :-/ ... Təzə tanış olduğum oğlan var, bir müddətdir ki, onunla söhbət edirəm.**

Çox yaxşı! Onunla internetdə tanış olmusan?

**Hə. O mənə yazdı, mesajlaşmağa başladıq, bilirsən, o, əladır. O, mənim nələr keçirdiyimi tam başa düşür, o da mənim kimi bullinqə (aqressiv davranışa) uğrayıb. Amma məsələn, valideynləri onun mavi olduğunu daha asanlıqla qəbul etdilər.**

Onda siz artıq görüşmüsünüz?

**Yox... hələ görüşməmişik. O burda deyil, ancaq həftəsonu gələcək və biz görüşəcəyik.**

Bəli, bu, doğrudan da maraqlıdır! Bəs onun haqqında nə bilirsən?

**O, çox diqqətlidir, həmişə necə olduğumu soruşur, dostlarım haqqında hər şeyi bilir.
Yeri gəlmişkən, onun sürücülük vəsiqəsi var, buna görə də hesab edirəm ki, yaşı 18-dən yuxarıdır.**

Başa düşdüm. Bəs profilində şəkilləri varmı?

**Əlbəttə, demək olar ki, hər yerə səyahət edib. Profilinin saxta olub-olmadığını yoxladım, arxayın ol.**

Yaxşı, bəs onda nə düşünürsən?

**Doğrusu... Hələki bilmirəm :-\, tamamilə normal, yaxşı görünür ... Ümumiyyətlə, fotolar çəkir, ona görə də adətən şəkillərdə olmur. Ancaq İnstaqramda izləyiciləri var, Snapçat-da da profili var.**

Aydındır, lakin... ehtiyatlı olmaqda fayda var. Bəs yaxşı... onunla kamera vasitəsilə görüntülü danışmısanmı?

**Yox, o bunun sürpriz görüş olmasını istəyir. Düşünür ki, belə daha maraqlı olar.**

Başa düşdüm. Amma, bütün hallarda, görüşə getməzdən əvvəl harda olacağın barədə böyüklərdən kiməsə məlumat ver, ən azından etibar etdiyin birinə mütləq de.

**Hə, əlbəttə. Ancaq valideynlərim bilsə, hirslənər. Gərək, başqa nəsə fikirləşim.**

Oldu. Bu əla fikirdir. Bəs harda görüşmək qərarına gəldiz?

**O, məni üzgüçülük dərsindən sonra götürəcək və sonra bir neçə foto çəkmək üçün çıxacağıq.
Onun planı var və mənim buna uyğun olduğumu söyləyir.**

Sizi başa düşürəm... Amma... Siz hələ bir-birinizi kifayət qədər tanımırsınız...

**Baş verə biləcək ən pis şey nədir?**

Bilirsən... Birdən o sənə cinsi əlaqəyə daxil olmağı təklif edər və ya səni buna məcbur qoyar. Unutma ki, cinsi əlaqəyə məcburetmə bir cinayətdir və qanunla müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

**Başa düşürəm.**

Məncə daha çox insanların olduğu bir yerdə görüşməyiniz daha yaxşı olar.
Həm də, bilirsən, kinoteatrlarda yeni filim nümayişinə başlayıblar. Deyirlər çox maraqlıdır.

**Kaş ki, uğurlu olaydı ...**

Düşünürəm ki, özünüzə bir az vaxt verməlisiniz. Onun ətrafında özünü rahat hiss etmirsənsə, ayrılmağın daha asan olacaq.

**Hə, əlbəttə. Sağ ol! Mən bu barədə fikirləşəcəm. Biz sabah danışa bilərikmi?**

Əlbəttə.

HƏMYAŞID DƏSTƏKÇİLƏR - HƏMYAŞIDLARININ ÇƏTİNLİYİ VƏ YA PROBLEMİ OLDUQDA ONLARI DƏSTƏKLƏYƏN ŞAGİRDLƏRDİR. ONLARLA RAHAT, GİZLİ ŞƏKİLDƏ DANIŞA BİLƏRSİNİZ VƏ ZƏRURİ HALLARDA ONLAR SİZƏ KÖMƏK EDƏ BİLƏCƏK BÖYÜKLƏR İLƏ ƏLAQƏ QURA BİLƏRLƏR.

ONLAYN DOSTUNUZ VƏ YA İNTERNETDƏ TANIŞ OLDUĞUNUZ KİMSƏ SİZİN SEKSUAL XARAKTERLİ AÇIQ-SAÇIQ GÖRÜNTÜLƏRİNİZİ ÇƏKMƏK VƏ YA SİZİNLƏ CİNSİ ƏLAQƏDƏ OLMAQ ÜÇÜN GÖRÜŞMƏYİ TƏKLİF ETSƏ, HƏMİN ŞƏXS CİNAYƏT TÖRƏDİR.



həmyaşıd dəstəyi

KİMSƏ UŞAQLARLA CİNSİ ƏLAQƏDƏ OLMAQ VƏ YA CİNSİ TƏMAS YARATMAQ ÜÇÜN MÜNASİBƏT QURURSA, BUNA «CİNSİ ƏLAQƏ MƏQSƏDİLƏ UŞAQLARI CƏLB ETMƏYƏ YÖNƏLMİŞ HƏRƏKƏTLƏR" DEYİLİR. BU, CİNSİ İSTİSMARIN BİR FORMASIDIR. BU, HƏM VİRTUAL ALƏMDƏ (İNTERNETDƏ), HƏM DƏ ADİ HƏYATDA BAŞ VERƏ BİLƏR. ONLAR UŞAQLA DOSTLUQ VƏ YA SEVGİ MÜNASİBƏTİ İLLÜZİYASINI- BU BARƏDƏ ALDADICI GÖRÜNÜŞ YARATMAĞA CƏHD EDƏ BİLƏRLƏR.

# BİZİM QRUPDA ÇATDA BƏZİ ŞƏKİLLƏR PAYLAŞILIB

**Salam, ciddi bir məsələ var və biz, bu barədə sizinlə danışmalıyıq.**

Salam, işlər necə gedir?

**Bilirsiniz, o biri sinfə təzə oğlan gəlib.**

Bəli, onun haqqında bəzi şeylər eşitmişəm, amma ona dərs demirəm.

**Bəzi uşaqlar ona sataşmağa başladılar ki, onun həqiqətən də nüfuzlu, sərt biri olub-olmadığını yoxlasınlar. Beləliklə, əslində, indi hamı ona gülür.**

Bu, çox narahatlıq doğurur. Gəl, biz burada sakit danışa bilərik ... Mənə de görüm, nə olub!

**Bu, əvvəlcə gülməli görünürdü, amma indi, baş verənlərin çox qəribə olduğunu görürəm. Onun sinif yoldaşlarının bəziləri saxta profil yaratdılar və həmin profildən ona yazmağa başladılar ki, itin nə qədər sevimlidir, instaqramda paylaşdığın rəsmlər çox maraqlıdır və sən çox yaraşıqlısan... bu kimi şeylər**

Həmin profili bir neçə adam istifadə edirdi?

**Əvvəlcə, onlar üç nəfər idi, sonrasını bilmirəm.**

Anladım.

**Onlar çatda ona dayanmadan yazırdılar, səhər, axşam və bir qədər sonra hadisələr axarından çıxdı. Təsəvvür edirsiniz.**

Sanki ona xəyanət etdilər

**Bu, əhvalatın sonu deyil. Bir qədər sonra yeni gələn oğlanın öz profilində paylaşdığı şəkillər, eləcə də yazışmalarda yazdığı mesajlar, onun həmin sinif yoldaşları tərəfindən hər kəsə yayıldı. Əlbəttə, o, heç kimin bunları görməsini istəməzdi ... Hətta mənim qardaşım özəl mesaj almışdı və onu da sinfin qrup çatında paylaşmışdılar. Kim bilir, daha kimlərə göndərilmişdi ...**

Bu barədə mənə məlumat verdiyiniz üçün təşəkkür edirəm. Bu cür hadisələr, həqiqətən də, qorumağa çalışdığınız həmyaşıdınız üçün təhlükə yaradır, həmçinin, digər yoldaşlarınızın davranışları isə cinayət məsuliyyətinə səbəb ola bilər.

**Biz bunu xəbər verən şəxslər olmaq istəmirik...**

Əlbəttə, bu, aramızda qalır. Mənə güvəndiyin üçün təşəkkür edirəm. Mən onun müəllimi ilə danışacağam və bunun həlli üçün əlimizdən gələni edəcəyik.

**Bəs indi nə edək, həmin görüntüləri silmək lazımdır?**

Əgər, şəkilləri hər kəs görə bilirsə, yəni o "hər kəs üçün açıq" statusundadırsa, əlbətdə ki, mümkün qədər tez bir zamanda silmək lazımdır. Bunu necə edəcəyinizi bilirsinizmi?

**Doğrusu, tam dəqiqliyi ilə bilmirəm, amma, mütləq maraqlanıb həll edərik.**

İstəsəniz, bunu necə etməyi sizə göstərə bilərəm. Ancaq, uşaqlar, çat qruplarınızda edilən hərəkətlərlə bağlı münasibət bildirməyiniz də doğru olardı. Çünki, digər yoldaşlarınız bu cür davranışların mənfi davranış olduğunu başa düşməlidirlər. Həm də, bu vəziyyətin düzəlməsinə kömək edə bilər.

**Yeni gələn oğlanla da bu haqda danışmalıyıq. Amma... qorxuram ki, bu onun qəzəblənməsinə səbəb ola bilər.**

Əziz uşaqlar, onu vəziyyətdən çıxarmaq üçün birgə səy göstərməliyik. Gəlin, biz bu işdə məktəbimizin psixoloquna da müraciət edək və birlikdə problemin ən yaxşı həlli yolunu tapaq!



QEYRİ-QANUNİ XARAKTERLİ MƏZMUNLAR BARƏDƏ İNTERNET QAYNAR XƏTLƏRİNƏ ANONİM OLARAQ MƏLUMAT VERİN VƏ HƏMİN MƏZMUNLARIN SİLİNMƏSİNİ TƏLƏB EDİN. BU KİMİ HALLARI GÖRMƏMƏZLİYƏ VURMAYIN! ŞƏKİLLƏRİN SİLİNMƏSİNİ HƏMİN SAYTIN ÖZÜNDƏN DƏ TƏLƏB ETMƏK OLAR. ÖLKƏNİZİ SEÇİN: WWW.INHOPE.ORG

BAŞQA BİRİNƏ AÇIQ-SAÇIQ SEKSUAL ŞƏKİL, YAXUD, VİDEO , ELƏCƏ DƏ, MOBİL TELEFON VƏ YA İNTERNET VASİTƏSİLƏ EROTİK MESAJLAR GÖNDƏRMƏK «SEKSTINQ» ADLANIR.

ONLAYN İSTİSMAR SEKSUAL XARAKTERLİ VƏ YA TƏHQİRAMİZ OLA BİLƏR. BURA GİZLİ OLARAQ ŞƏXSİ MƏLUMATLARINIZIN ƏLDƏ OLUNMASI, MÜXTƏLİF VASİTƏLƏRLƏ ŞANTAJ, SOSİUMDAN TƏCRİD ETMƏ, İZLƏMƏ, ŞƏRH VƏ DAVRANIŞLA TƏHQİR DAXİLDİR.

UŞAQLAR GETDİKCƏ İNTERNETDƏ DAHA ÇOX VAXT KEÇİRİR VƏ DOSTLARI İLƏ ÜNSİYYƏT QURMAQ, HİSSLƏRİNİ İFADƏ ETMƏK, ÖYRƏNMƏK, ƏYLƏNMƏK ÜÇÜN SOSİAL MEDİAYADAN ASILI OLURLAR. SEKSUAL XARAKTERLİ CİNAYƏT TÖRƏDƏNLƏR BU VƏZİYYƏTDƏN İSTİFADƏ EDİRLƏR. BELƏ OLDUQDA, DAHA ÇOX UŞAQ İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARI VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN, ONAYIN İSTİSMARA MƏRUZ QALIR. (MƏSƏLƏN: SİZƏ, İSTƏYİNİZ ƏLEYHİNƏ OLARAQ, SEKSUAL HƏRƏKƏTLƏR ETMƏNİZ, YAXUD ÖZ PORNOQRAFİK ŞƏKİLLƏRİNİZİ GÖNDƏRMƏNİZ ÜÇÜN TƏZİQ EDİRLƏR.) BU BİR ONLAYN CİNSİ İSTİSMARDIR.



**müəllim**

UŞAĞIN (YAŞI 18-Ə ÇATMAMIŞ YENİYETMƏLƏR DAXİL OLMAQLA) SEKSUAL XARAKTERLİ FOTOŞƏKİL VƏ YA AUDİOVİZUAL ÇƏKİLİŞLƏRİNİ ETMƏK, SAXLAMAQ VƏ YA İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARI VASİTƏSİLƏ ÖTÜRMƏK UŞAQ PORNOQRAFİYASI HESAB OLUNUR VƏ BU HƏRƏKƏTƏ YOL VERMİŞ ŞƏXSLƏR QANUNLA MÜƏYYƏN QAYDADA MƏSULİYYƏT CƏLB EDİLİR.

ÖZÜNÜZÜ VƏ YA DOSTLARINIZI QORUMAQ ÜÇÜN, QEYRİ-QANUNİ, ŞÜBHƏLİ MƏSƏLƏLƏRLƏ BAĞLI BÖYÜKLƏRƏ MƏLUMAT VERMƏYİNİZ VACİBDİR. HƏTTA, BÖYÜKLƏR BELƏ BU CÜR HALLARLA RASTLAŞDIQDA VAXT İTİRMƏDƏN AİDİYYƏTİ QURUMLARA MÜRACİƏT ETMƏLİDİRLƏR.

KİMDƏNSƏ BU CÜR ŞƏKİL VƏ YA VİDEOLAR ALSANIZ, DƏRHAL POZMALI, TELEFON, YAXUD ELEKTRON POÇTUNUZDA SAXLAMAMALISINIZ. ONLARI QRUPLARDA PAYLAŞMAMALI VƏ YA BAŞQALRINA GÖNDƏRMƏMƏLİSİNİZ.

ZƏRƏR ÇƏKƏN DOST-TANIŞLARINIZI ƏN QISA MÜDDƏTDƏ NORMAL HƏYATA QAYITMALARI, CƏMIYYƏTƏ SAĞLAM ŞƏKİLDƏ ADAPTASİYA OLMALARI ÜÇÜN MÜTLƏQ, DƏSTƏKLƏYİN!

# BƏS BU, CİNAYƏTDİRMİ?

UŞAQ PORNOQRAFİYASI" TERMİNİ - HƏQİQƏTƏN VƏ YA SİMULYASİYA ŞƏKİLDƏ AÇIQ-AYDIN SEKSUAL XARAKTERLİ HƏRƏKƏTLƏR EDƏN UŞAĞI GÖSTƏRƏN, YAXUD İLK NÖVBƏDƏ SEKSUAL MƏQSƏDLƏR ÜÇÜN UŞAĞIN CİNSİYYƏT ORQANLARINI NÜMAYİŞ ETDİRƏN İSTƏNİLƏN MATERIALI İFADƏ EDİR.

BU CÜR ŞƏKİL VƏ YA VİDEOLARI SAXLAMA, İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARI VASİTƏSİLƏ BİLƏRƏKDƏN YAYMA VƏ YA ƏLDƏETMƏYƏ GÖRƏ CİNAYƏT MƏSULİYYƏTİ MÜƏYYƏN EDİLİR.

CİNAYƏT MƏSULİYYƏTİNƏ CƏLB EDİLMƏK ÜÇÜN YAŞ HƏDDİ HƏRƏNİN ÖZ ÖLKƏSİNDƏN ASILIDIR, HƏTTA YAŞINIZ 18-DƏN AŞAĞI OLSA DA, CİNAYƏT MƏSULİYYƏTİNƏ CƏLB OLUNMAQ MÜMKÜNDÜR. CİNAYƏT MƏSULİYYƏTİNƏ CƏLB OLUNMAQ ÜÇÜN ƏN AŞAĞI YAŞ HƏDDİ ÇOX ZAMAN 14 YAŞDIR, MƏSƏLƏN, MACARISTANDA, ALMANİYADA VƏ RUSİYA FEDERASİYASINDA BELƏDİR, ANCAQ ÖLKƏLƏRƏ GÖRƏ YAŞ HƏDDİ DƏYİŞİR: FRANSA VƏ YUNANISTANDA 13, BELÇİKA, NİDERLAND VƏ TÜRKİYƏDƏ 12, BÖYÜK BRİTANİYA VƏ İSVEÇRƏDƏ 10 YAŞDIR.

**Salam, mənim sualım var.**

Salam! Sənə necə kömək edə bilərəm?

**Mənim bir rəfiqəm öz sevgilisindən ayrılıb və indi oğlan bəzi saytlara onun şəkillərini göndərəcəyini söyləyərək onu şantaj edir.**

**Necə düşünürsüz? Görəsən o həqiqətən də dediyini etsə, nələr baş verə bilrə? Siz bizə kömək edə bilrəsiz?**

Rəfiqənin neçə yaşı var?

**17**

Anladım. Hansı şəkillərdən bəhs etdiyini söyləyib mənə bir az kömək edərsənmi?

**Çox açıq-saçıq şəkillərdir.... yarıçılpaq.... hətta... çılpaq şəkilləri də var :-(((**

Yaxşı ki, yazdın, çünki 18 yaşına çatmamış şəxslərin çılpaq və ya yarıçılpaq şəkillərini paylaşmaq barədə qanunlar olduqca sərtdir.

**😱😱😱**

Belə şəkilləri və ya videoları başqalarına göndərən, paylaşan və ya ötürən hər kəs cinayət məsuliyyəti daşıyır.

Rəfiqənin keçmiş sevgilisi, həmin şəkilləri saxlamaq, sosial şəbəkələrdə yaymaq, qruplarda paylaşmaq, hətta, sadəcə bunlarla onu şantaj etdiyinə görə məsuliyyətə cəlb oluna bilər. Eyni zamanda, həmin şəxsin 18 yaşı tamam olmasa belə, bu onu məsuliyyətdən azad etmir.

**Bəs əgər rəfiqəm o şəkillərin çəkilməsinə özü razı olubsa, məhz, özü həmin şəkilləri öz istəyi ilə sevgilisinə göndəribsə, onda necə? 🤔**

Bu vəziyyəti dəyişmir.

**Onda... belə başa düşdüm ki, şəkilləri rəfiqəmin öz istəyi, yaxud, məcburi göndərməsindən asılı olmayaraq, hər iki halda qarşı tərəf məsuliyyət daşıyır?**

Tamamilə doğrudur. Çünki, həmin şəkilləri çəkmək, saxlamaq və ya yaymaq qanunla qadağandır.

**Bəs, oğlan həmin şəkilləri yalnız telefonunda saxladığına, silmədiyinə görə, cəzalandırıla bilər?**

Əlbətdə. Belə bir şəkili alan hər bir kəs, onu tez zamanda pozmalıdır. Yaşından asılı olmayaraq, bu cür şəkilləri saxlayan, yaxud yayan, bütün şəxslər barəsində cinayət işi açıla bilər.

**Hətda, həmin şəkil məhz, onun öz şəkli olsa belə?**

Adətən, bu ikinci tərəfə, yəni, digər şəxsə aid edilir. Əgər, 18 yaşı tamam olmayan hər hansı birinin pornoqrafik şəkili başqası tərəfindən saxlanılarsa, yaxud, paylaşılarsa bu qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

**😅**

**Belə məlum olur ki, əgər rəfiqəmin keçmiş sevgilisi onun şəkillərini paylaşsa, burda rəfiqəmə məsuliyyət düşmür, yəni, o, qanunla heç bir məsuliyyət daşımır? 🤔**

Bu halda rəfiqən, məsuliyyət daşımır. Amma, onun oğlan dostu həqiqətən də, dediyi kimi etsə, şübhəsiz ki, o cəzalandırıla bilər.



BƏZİ ÖLKƏLƏRDƏ UŞAQLARA ÖZ BƏDƏNLƏRİNİN SELFİSİNİ ÇƏKMƏYƏ VƏ YA SAXLAMAĞA İCAZƏ VERİLİR, BU ŞƏRTLƏ Kİ, UŞAQLAR CİNSİ ƏLAQƏYƏ RAZILIQ VERMƏK ÜÇÜN QANUNLA İCAZƏ VERİLƏN YAŞA ÇATMIŞ OLSUNLAR.




MÜVAFİQ SAHƏ ÜZRƏ AİDİYYƏTİ ORQAN, HƏR HANSI BİR QANUN POZUNTUSUNA DAİR MƏLUMAT ALDIQDA, BAŞ VERMİŞ QANUN POZUNTUSUNU ARADAN QALDIRMAQ ÜÇÜN VAXTINDA TƏDBİRLƏR GÖRÜR.

EHTİYAC OLDUĞUNDA, UŞAQLARA DƏSTƏK TELEFON XƏTTİ XİDMƏTLƏRİNDƏN DƏ FAYDALANA BİLƏRSİNİZ. ÖZ ÖLKƏNİZİ SEÇİN.
WWW.INHOPE.ORG

HƏR KƏSİN ŞƏXSİ TOXUNULMAZLIQ HÜQUQU VARDIR. ÖZ RAZILIĞI OLMADAN KİMSƏNİN ŞƏXSİ HƏYATI HAQQINDA MƏLUMATIN TOPLANILMASINA, SAXLANILMASINA, İSTİFADƏSİNƏ VƏ YAYILMASINA YOL VERİLMİR.

**Bu barədə necə və hara müraciət etməliyik? Bəs müraciət valideynlərimiz vasitəsiylə olmalıdır?**

Təbii ki, buna uşaqlar özləri qərar verməlidirlər. Həm valideynlərin köməyilə, həm də, uşaq özü şəxsən ərazi polis idarə və ya bölməsinə müraciət edə bilər.

**Polis şəkilləri görəcək?**

Zərərçəkmiş şəxsi müəyyənləşdirmək, baş vermiş hadisəni tam şəkildə təhlil etmək üçün onlar bütün dəlillərlə tanış olmaq məcburiyyətindədirlər. Bu halda, bəli, tədqiqatı aparan şəxslər şəkilləri görəcək, lakin, bununla belə, bütün araşdırmalarda anonimlik qorunur.

**Bu vəziyyətdə rəfiqəmin keçmiş sevgilisi həbs oluna bilərmi?**

Səlahiyyətli qurumlar cinayətin ağırlığını və baş vermə şəraitini nəzərə alır və onun əsasında hadisəni törədən şəxslə bağlı müvafiq qərar qəbul edilir.

**Nə kimi?**

Cəzanın növü törədilən əməlin ağırlıq dərəcəsindən asılı olaraq dəyişir. Məsələn, bu, müəyyən müddətə azadlıqdan məhrum etmə, cərimə, islah işləri və. s. ola bilər.

**Bəs qız onu şəkilləri silməyə necə məcbur edə bilər?**

Rəfiqən, oğlan dostuna, şəkillərini yayamaqla onu şantaj etməyin qanuna zidd bir əməl olduğunu, bu əməlin fəsadları və nəticəsi barədə ətraflı danşmalıdır. Əgər bu söhbətdən sonra o fikrindən daşınmazsa, şəkilləri silmək, paylaşmaq qərarında israr edərsə, bu zaman vətəndaşın müraciəti əsasında səlahiyyətli qurumlar tərəfindən məsələ ilə bağlı müvafiq tədbir görüləcəkdir.

**yaxşı, anladım, sağ olun, xudahafiz! 😍**

Əlavə suallarınız olsa, yenidən bizimlə əlaqə saxlamaqdan çəkinməyin. Sağ olun.

# CİNAYƏT İŞİNƏ

## BAŞLANDIQDA

İndi ki, bir-birimizi tanıdıq, icazə verin, cinayət işinin gedişi zamanı üzləşəcəyimiz məqamlar barədə sizə məlumat verim. Aydın danışmağa çalışacam, amma nəsə aydın deyilsə, hər ikinizdən xahiş edirəm ki, sual verməkdən çəkinməyin!

**(uşaq) Oldu.**

**(valideyn) Təşəkkür edirəm.**

Bilməliyik ki, hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır. Buna əsaslanaraq, təqsirsiz olduğumuzu sübut edə bilməmiz üçün, cinayət prosesinin bütün mərhələlərində düzgün müdafiə mövqeyi seçməliyik. Bu çox vacib şərtlərdəndir.

**(v) Biz nəyə hazır olmalıyıq?**

İstintaq, məhz, baş vermiş hadisəni araşdırmaq, eyni zamanda, məhkəməyə təqdim olunması üçün hadisəyə dair sübut və dəlillər əldə etmək məqsədi daşıyır. Məhkəmədə verilən ifadələr, geri götürülmədiyi təqdirdə dəlil və ya sübut kimi dəyərləndirilə bilər.

**(u) Mən hər şeyi söyləməliyəm?**

Dürüst danışmaqla, siz istintaqa kömək edirsiniz. Bu, həm də sizin borcunuzdur. Vacib olduğu hallarda, hakim və ya digər səlahiyyətli şəxslər tərəfindən əlavə suallar səsləndirilə bilər.

**(v) Oğlumun ifadə verməsi mütləq vacibdirmi?**

Sübut yetərsizliyi olduqda, oğlunuzun ifadə verməsi tələb edilə bilər. Təqsirləndirilən şəxs məhkəmə baxışı zamanı ifadə verməkdən imtina etdikdə və ya susduqda, andlı iclasçılar kollegiyasının diqqətini həmin faktın hüquqi əhəmiyyət daşımamasına və təqsirləndirilən şəxsin təqsirliliyinin təsdiqi kimi şərh edilə bilməməsinə yönəldir.

**(v) Biz hara getməliyik?**

Məhkəmə işdə iştirak edən şəxslərə məhkəmə sənədləri sifarişli poçt göndərişi (məktubu) ilə çatdırılır. Hətta, əsaslı səbəb olarsa məhkəmə iclasına birbaşa getməyə də bilərsən. Belə ki, müstəsna hallarda həyatına real təhdidlər olduqda zərər çəkmiş şəxsin təhlükəsizliyini təmin etmək məqsədilə zərər çəkmiş şəxsin və ya dövlət ittihamçısının vəsatəti üzrə, həmin şəxsə məhkəmə iclasında bilavasitə iştirak etmədən texniki vasitələrdən istifadə olunmaqla ifadə vermək imkanı yaradıla bilər.

**(v) Onun üçün bu barədə danışmaq asan deyil. Bunu yalnız bir dəfə demək kifayətdirmi?**

Prosessual hərəkətin aparılması zamanı, yəni, müstəntiq istər şübhəli şəxsi, istərsə də zərər çəkmişi audio yazıdan, video və kino çəkilişdən və ya digər texniki vasitələrdən istifadə etməklə dindirmək hüququna malikdir. Müsahibələr videolentə çəkilməlidir ki, məhkəmədə sübut kimi istifadə edilə bilsin. Ancaq, bütün hallarda, hər hansı bir məqamın araşdırılması məqsədiylə, oğlunuzdan təkrar ifadənin alınması tələb oluna bilər.

**(u) Anam mənimlə gələ bilər?**

Əlbətdə. Yetkinlik yaşına çatmayan şəxs barəsində ibtidai istintaqın aparılması zamanı, valideynlərin və ya digər qanuni nümayəndələrin iştirak etmək hüququ var.

**(u) Orada daha kim olacaq?**

Yetkinlik yaşına çatmayan şəxsin iştirakı ilə istintaq hərəkətlərinin aparılmasında müstəntiq müəllim və ya psixoloqun iştirakını təmin etməlidir. Eyni zamanda, sənin müdafiəçin qismində mən də iştirak edə bilərəm.

**(u) Bütün bu şeyləri başlayan adam da orada olacaqmı?**

Əksər hallarda hər iki tərəfin mənafeyini qorumaq məqsədilə belə bir görüş təşkil edilmir.

**(v) Eşitdiyimə görə, yerli mətbuat hadisə ilə yaxından maraqlanır.**

Seksual xarakterli hüquq pozuntusu halında, mətbuat məhkəmədə iştirak edə bilməz. Xahiş olunarsa, ictimaiyyət də hər zaman kənarlaşdırıla bilər. Dinləmələr həmişə qapalı olub. Mətbuat sizin şəxsiyyətinizi tanıda biləcək heç bir məlumatı açıqlaya bilməz.

**(v) Kömək üçün kiməsə müraciət edə bilərikmi?**

İstəyirsinizsə, sizi bu sahədə peşəkarlıqları ilə seçilən mütəxəssislərlə tanış edim. Əlbəttə, hüquqi yardım mərkəzləri, fondlar və dərnəklərdən də dəstək istəyə bilərsiniz.

YETKİNLİK YAŞINA ÇATMAYAN ŞƏXS BARƏSİNDƏ İBTİDAİ İSTİNTAQIN APARILMASI ZAMANI MÜSTƏNTİQ MÜƏLLİM VƏ YA PSİXOLOQUN İŞTİRAKINI TƏMİN ETMƏLİDİR. BƏZİ DÖVLƏTLƏRDƏ, SEKSUAL XARAKTERLİ CİNAYƏTLƏRLƏ BAĞLI APARILAN İSTİNTAQ ZAMANI MÜSTƏNTİQİN İFADƏSİ ALINAN ŞƏXSLƏ EYNİ CİNSDƏN OLMASINA DİQQƏT YETİRİLİR.

ƏGƏR MÜSAHİBƏ APARILAN DİLDƏ DANIŞA BİLMİRSİNİZSƏ, SİZİN TƏRCÜMƏÇİNİN KÖMƏYİNDƏN PULSUZ İSTİFADƏ ETMƏK HÜQUQUNUZ VARDIR.



CİNAYƏT TƏQİBİNİN HƏYATA KEÇİRİLMƏSİ ZAMANI, ZƏRƏR ÇƏKMİŞ ŞƏXSİN, ŞAHİDİN VƏ CİNAYƏT PROSESİNDƏ İŞTİRAK EDƏN DİGƏR ŞƏXSLƏRİN TƏHLÜKƏSİZLİYİ ÜÇÜN TƏDBİRLƏR GÖRÜLÜR. ƏGƏR, SİZİ KİMSƏ HƏDƏLƏYİR VƏ YA QORXUDURSA BU HAQDA MÜTLƏQ BÖYÜKLƏRƏ, SƏLAHİYYƏTLİ ŞƏXSLƏRƏ MƏLUMAT VERİN.

MƏXFİLİYİNİZ QORUNMALIDIR. HƏTTA, TELEVİZİYADA VƏ YA RADİODA BAŞ VERƏNLƏR HAQQINDA DANIŞSALAR DA, ADINIZ VƏ ÜZÜNÜZ İCTİMAİYYƏTDƏN GİZLƏDİLMƏLİDİR VƏ SİZİN KİMLİYİNİZİN AÇIQLANMASINA SƏBƏB OLA BİLƏCƏK HEÇ BİR MƏLUMAT VERİLMƏMƏLİDİR.

HÜQUQLARINIZI BAŞA DÜŞMƏYİNİZƏ KÖMƏK EDƏN VƏ SİZƏ HANSI KÖMƏK GÖSTƏRİLƏCƏYİ BARƏDƏ BÜTÜN MƏLUMATLARI ALACAQSINIZ. PROSESİ, ROLUNUZU VƏ İŞİNİZİN İNKİŞAFINI, NƏTİCƏLƏRİNİ VƏ XƏRCLƏRİNİ BAŞA DÜŞMƏYİNİZ VACİBDİR

ƏDALƏTLİ MƏHKƏMƏ ARAŞDIRMASINA HÜQUQUNUZ VARDIR. SƏLAHİYYƏTLİ ORQANLAR TƏMİN ETMƏLİDİR Kİ, MƏHKƏMƏ ZAMANI ZƏRƏR GÖRMƏYƏSİNİZ VƏ LAZIM OLAN BÜTÜN YARDIMLARI ALASINIZ. PROSEDURLAR GECİKDİRİLMƏMƏLİDİR, AMMA TƏƏSSÜF Kİ, BƏZƏN BİR NEÇƏ AY VƏ YA İLLƏR ÇƏKƏ BİLƏR.

UNUTMAYIN, SİZİN FİKİRLƏRİNİZ VACİBDİR VƏ HƏMİŞƏ DİNLƏNİLMƏLİ, NƏZƏRƏ ALINMALIDIR. İSTƏYİRSİNİZSƏ, FİKİRLƏRİNİZİ VASİTƏÇİNİZİN KÖM KLİYİ İL İFADƏ EDƏ BİLƏRSİNİZ - MƏSƏLƏN, VALİDEYNLƏRİNİZ VƏ YA VƏKİLİNİZ VASİTƏSİLƏ.

ADƏTƏN, UŞAQLARLA MÜSAHİBƏLƏR BU MƏQSƏDLƏ HAZIRLANMIŞ VƏ UYĞUNLAŞDIRILMIŞ MÜVAFİQ OTAQLARDA APARILIR. POLİS İŞÇİLƏRİ VƏ YA VƏKİLİNİZDƏN SİZİN ÜÇÜN BELƏ BİR ŞƏRAİTİN YARADILMASINI XAHİŞ EDİN.

vəkil



ƏGƏR VALİDEYNLƏRİNİZ VƏ YA QANUNİ NÜMAYƏNDƏNİZ DƏ SİZƏ ZƏRƏR VERMİŞSƏ VƏ SİZİN MƏNAFEYİNİZ RİSK ALTINDA OLDUĞU HALDA, SİZƏ KÖMƏK ETMƏK VƏ HÜQUQLARINIZI QORUMAQ ÜÇÜN XÜSUSİ BİR NÜMAYƏNDƏ ("MƏHKƏMƏNİN TƏYİN ETDİYİ QƏYYUM") TƏYİN EDİLƏCƏKDİR Kİ, İSTİSMARI TÖRƏTMİŞ ŞƏXSƏ HEÇ VAXT ETİBAR ETMƏYƏSİNİZ.

# UNUTMA Kİ, DÖVLƏT
# SƏNİ QORUYUR.

Bu və ya digər şəxsin səni incitməsi, alçaldıcı hərəkətlər və ya istismar etməsi yolverilməzdir. Dövlət uşaqlara qarşı törədilən seksual xarakterli cinayətlərin qarşısının alınmasında, təqsirkarların cinayət məsuliyyətinə cəlb edilməsində və zərər çəkmiş uşaqların müdafiəsi istiqamətində bütün mühüm addımları atır.

**Bəs, bu hansı normativ-hüquqi aktda öz əksini tapır?**

Lansarote Konvensiyası spesifik olaraq uşaqların cinsi zorakılıqdan qorunmasına həsr edilmiş ilk regional sazişdir. 2007-ci ildə İspaniyanın Lansarote şəhərində qəbul edilib.

**Hansı ölkələr iştirak edir?**

2010-cu ildə qüvvəyə minmiş Lanzarote Konvensiyası Avropa Şurasının bütün Üzv Dövlətləri tərəfindən imzalanıb.

**Bu Konvensiya nə haqdadır?**

Konvensiya, uşaq hüquqlarının qorunması, rifahının yüksəldilməsi, onların fikirlərinin, ehtiyac və qayğılarının nəzərə alınmasına və hər zaman onların maraqları çərçivəsində göstəriln fəaliyyətə yönəldilib.

**Bunu dövlət necə edə bilər?**

Dövlət siyasətinin əsasında duran prinsiplərdən biri də, məhz, maariflənmədir. Öz hüquqlarınızı bilmək, cinsi istismar və seksual xarakterli hərəkətlərlə bağlı risklər barədə məlumatlanmaq və özünüzü müdafiə edə bilməniz üçün Dövlət tərəfindən mütamadi olaraq maarifləndirmə tədbirləri həyata keçirilir.

**Dövlətin verdiyi vədə əməl edib-etmədiyinə kimsə nəzarət edirmi?**

Lansarote Komitəsi kimi tanınan Konvensiya Tərəflərinin Komitəsi, Konvensiyaya qoşulmuş ölkələrin, onu öz qanunvericilik və siyasətləri çərçivəsində səmərəli şəkildə tətbiq edib-etmədiklərinə nəzarət edir.

**Avropa Şurası nədir?**

Avropa Şurasının tərkibində bütün Avropa qitəsindən 47 üzv dövlət var. 1949-cu ildən bəri o, demokratiyanın inkişafı və insan hüquqlarının qorunması uğrunda çalışır.



Lanzarote Konvensiyası

Hazırkı sənəddə ifadə edilmiş fikirlərə görə müəllif (müəlliflər) məsuliyyət daşıyır və həmin fikirlər hec bir vəchlə Avropa Şurasının rəsmi siyasətini əks etdirmir.

Bütün hüquqlar qorunur. Bu nəşrin heç bir hissəsi Kommunikasiya İdarəsinin (F-67075 Strasburq Cedeks və ya publishing@coe.int) qabaqcadan yazılı icazəsi olmadan elektron (CD-Rom, internet və s.) və ya mexaniki, o cümlədən fotosurət, səsyazma və ya hər hansı məlumat saxlama və ya axtarış sistemi olmaqla hər hansı formada və ya hər hansı vasitə ilə ötürülə, təkrar nəşr edilə və ya tərcümə edilə bilməz.

Redaktor: Barbara Németh, Hintalovon Uşaq Hüquqları Fondu

İllüstrasiya: Hintalovon Uşaq Hüquqları Fondu

Avropa Şurası Nəşri F-67075 Strasburq Cedeks http://book.coe.int

©Avropa Şurası, noyabr 2019-cu il

Avropa Şurasında nəşr edilmişdir.

Uşaqlara Qarşı Zorakılığa Son Fondu tərəfindən bu proqram üçün verilən maliyyə dəstəyinə görə Avropa Şurası böyük minnətdarlığını bildirir.

Bu kitabça Hintalovon Uşaq Hüquqları Fondunun köməyi ilə uşaqlarla tərəfdaşlıqla yaradılmışdır. Sizə nəyin və necə izah edilməsinin qərara alınmasında uşaqlar dəyərli töhfə veriblər.

ƏTRAFLI MƏLUMAT ÜÇÜN DAXIL OLUN:

www.coe.int/children

RƏYLƏRINIZI BIZƏ BU ÜNVANA GÖNDƏRIN:

lanzarote.committee@coe.int

AZ

Avropa Şurası qitənin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatıdır. 47 üzv dövlətdən ibarətdir ki, bunlardan 28-i eyni zamanda Avropa İttifaqının üzvüdür. Avropa Şurasının bütün üzv dövlətləri Avropa İnsan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan müqaviləni - İnsan Hüquqlarının Müdafiəsi haqqında Konvensiyanı imzalamışdır. Avropa İnsan Hüquqları Məhkəməsi üzv dövlətlərdə konvensiyanın tətbiq edilməsinə nəzarət edir.

HINTALOVON
Child Rights Foundation

End Violence Against Children
THE FUND

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE